**Əfsanə Bəbir qızı Quliyeva**

**UOT:336.11; JEL:G39.**

# Azərbaycanda auditin təşkili və inkişafının əsas məqamları

***Xülasə***

*Məqalədə ölkədə auditin inkişaf prosesləri araşdırılır. Xüsusilə də auditin hüquqi, metodoloji əsaslarına diqqət yetirilir və onun keyfiyyət məsələləri qiymətləndirilir. Həmçinin, auditin subyektlərdə inkişaf istiqamətlərinə diqqət yetirilməklə, bununla bağlı fikirlər irəli sürülür.*

***Açar sözlər:*** *audit, tənzimlənmə, xidmətin keyfiyyəti, hüquqi və metodoloji sənədlər*

## Giriş

Ölkəmizdə sahibkarlığın inkişafı ilə bağlı həyata keçirilən məqsədyönlü tədbirlərin əhatə dairəsinin genişlənməsi Azərbaycanda auditor xidmətinin inkişafına böyük imkanlar yaratmış, respublikamızın ərazisində auditor fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın yaradılması və təkmilləşdirilməsi sahəsində Azərbaycan Respublikası Auditorlar Palatasının qarşısında yeni vəzifələr qoymuşdur. Azərbaycanda auditor fəaliyyəti "Auditor xidməti haqqında" və digər qanunvericilik sənədləri ilə tənzimlənir. Bundan əlavə, ölkə başçısının son illərdə imzaladığı kifayətqədər fərman və sərəncamda da cəmiyyətin demokratikləşməsində və iqtisadi islahatların beynəlxalq təcrübəyə uyğun şəkildə apaılmasında auditin yeri və rolu, audit sisteminin qarşısında duran vəzifələr əksini tapmışdır.

## Auditin normativ-metodoloji əsasları

Auditor fəaliyyətinin tənzimlənməsində və inkişafında audit standartları müstəsna rol oynayır. Audit standartları - öz peşə vəzifələrini yerinə yetirərkən auditorların rəhbər tutmalı olduqları normativ müddəalardır. Audit standartlarının məqsədi auditə dair vahid baza tələblərini formalaşdırmaq və auditin keyfiyyətinə normativ tələbləri müəyyənləşdirməklə, auditin etibarlılığına təminat verməkdir. Azərbaycan Respublikasında auditor fəaliyyətinin təşkili, tənzimlənməsi və inkişafı üçün normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində Auditorlar Palatasının çoxcəhətli fəaliyyətində milli audit standartlarının hazırlanması xüsusi yer tutur. Palatanın fəaliyyətə başladığı ilk günlərdən etibarən bu istiqamətdə ardıcıl iş aparılmış və həmin proses hazırda da davam etdirilir. Auditorlar Palatası tərəfindən Hazıradək ölkədə auditor xidmətinin təşkilini tənzimləyən 34 milli audit standartı, "Auditorların peşə etikası" Məcəlləsi və 30-dək digər normativ hüquqi sənəd hazırlanmışdır. Ölkəmizin ərazisində fəaliyyət göstərən sərbəst auditorlar və auditor təşkilatları Auditorlar Palatası tərəfindən milli audit standartları ilə təmin olunurlar və həmin standartların tətbiqi onlar üçün məcburi xarakter daşıyır.

Audit standartlarından başqa, banklarda, səhmdar cəmiyyətlərində, sığorta təşkilatlarında audit aparılmasına dair, birgə müəssisələrin maliyyə təsərrüfat fəaliyyətinin auditinə dair, dövlət müəssisələrinin özəlləşdirilməsi və ya başqa məqsədlərlə əlaqədar olaraq təsərrüfat subyektləri əmlaklarını qiymətləndirməyin düzgünlüyünün auditinə dair, sərbəst auditorun, auditor təşkilatının, sərbəst xarici



© *Əfsanə Bəbir qızı Quliyeva Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant*
©*AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

auditorun və xarici auditor təşkilatının filial və ya nümayəndəliklərinin maliyyə-təsərrüfat fəaliyyətlərinin yoxlanılmasına dair proqramlar, "Auditin planlaşdırılması" milli audit standartının tətbiq edilməsi haqqında təlimat", "Auditor təşkilatının uçot vərəqəsinin tətbiqi" və "Auditor təşkilatlarının (və ya sərbəst auditorların) maliyyə - təsərrüfat fəaliyyətinin və onların apardıqları auditlərin keyfiyyətinin audit standartlarına uyğunluğunun yoxlanılmasına dair nümunəvi akt formasının tərtib edilməsi qaydaları» işlənib hazırlanmış və Palatanın Şurasında təsdiq edilmişdir. Auditorlar Palatası audit qanunvericiliyinin, auditlə bağlı normativ hüquqi aktların, o cümlədən milli audit standartlarının sərbəst auditorlar və auditor təşkilatları tərəfindən düzgün tətbiq olunmasına ardıcıl şəkildə, planauyğun qaydada nəzarət edir. Ölkə prezidentinin məlum fərmanlarından irəli gələn vəzifələrə uyğun olaraq, Auditorlar Palatasında yeni normativ hüquqi aktların, o cümlədən milli audit standartlarının işlənib hazırlanması üzrə işlər davam etdirilir. Palatanın 2003-cü il üçün iş planında 15 hüquqi normativ hüquqi aktın, o cümlədən "Azərbaycan Respublikasının ərazisində auditor fəaliyyəti ilə məşğul olan sərbəst auditorların və auditor təşkilatlarının peşə məsuliyyətinin icbari sığortası haqqında" və "Auditorlara qarşı məhkəmə iddiaları və onların peşə məsuliyyətinin sığortalanması haqqında" Azərbaycan Respublikası qanunlarının, "Maliyyə informasiyasının hazırlanması üzrə tapşırıq", "Banklararası təsdiqetmə standartları", "Kiçik müəssisələrin auditinin xüsusiyyətləri", "Maliyyə hesabatlarının icmalı üzrə tapşırıq", "Maliyyə hesabatlarının auditi zamanı ekoloci məsələlərin nəzərə alınması" kimi normativ-metodoloji sənədlərin, bələdiyyələrin və investisiya fondlarının auditinə dair proqramların layihələrinin işlənib hazırlanmışdır.



Hər bir fəaliyyətdə olduğu kimi, auditor xidmətində də keyfiyyətə nəzarət zəruri şərtdir. Keyfiyyət amili təsərrüfat subyektinin fəaliyyəti üçün xüsusi əhəmiyyət kəsb etməklə, ilk növbədə, subyektin maliyyə-təsərrüfat fəaliyyəti ilə əlaqədar olan proseslər haqqında dolğun, şəffaf və obyektiv informasiya formalaşdırmaq imkanlarını yüksəldir. Keyfiyyətli audit həm də subyektin struktur bölmələri arasında koordinasiya əlaqələrinin, informasiya mübadiləsinin güclənməsi amili kimi zəruridir. Məhz daxili auditin fəaliyyəti bu sistiemli koordinasiyanın formalaşmasında özünü daha bariz şəkildə büruzə verir. Auditin keyfiyyətinə nəzarət sistemi audit subyektinin özündə daha təkmil təşkil edilməli, xidmətin keyfiyyətinə nəzarəti audit obyektindən daha çox audit subyekti izləməli və qiymətləndirməlidir. Xüsusilə auditor təşkilatlarında keyfiyyətin qiymətləndirmə mexanizmini təşkil etməklə, aparılan auditlərin yüksək tələblər səviyyəsində icrasını təmin etmək mumkundür.

**Auditin keyfiyyətinə olan tələblər**

Azərbaycanda audit sisteminin təşəkkül tapdığı ilk çağlardan xidmət bazarında milli və xarici audit subyektləri (sərbəst auditorlar, yerli və xarici auditor təşkilatları) fəaliyyət göstərməyə başlamışlar. Lakin həmin dövrdən indiyədək təsərrüfat subyektlərinə auditor xidmətləri göstərən sərbəst auditorlar və yerli auditor təşkilatları hələ də xidmət bazarında xarici auditor təşkilatlarına nisbətən güclü mövqedən çıxış etmirlər. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri vardır. Ən əvvəl, beynəlxalq işgüzar dairələrdə geniş əlaqələrə, gözgün imicə, möhkəm maddi-texniki bazaya malik olan xarici auditor təşkilatları xidmət bazarında daha çox tanınırlar. Bir çox dünya ölkələrində olduğu kimi, Azərbaycanda də fəaliyyət göstərən beynəlxalq qurumlar, xarici sərmayəli müəssisələr, bank-kredit təşkilatları və bəzi iri təsərrüfat subyektləri öz auditinin aparılmasında məhz xarici auditor təşkilatlarına üçtünlük verirlər. Dünya təcrübəsində müşahidə olunan son proseslər artıq sübut edir ki, auditor

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

təşkilatının böyüklüyü, imici onun apardığı auditin keyfiyyətinə zəmanət verə bilməz. Audtin keyfiyyətinin qorunması auditə olan inamın formalaşma amili kimi xüsusi əhəmiyyət kəsb edir.

Auditin keyfiyyətini müasir tələblər və standartlar səviyyəsində təşkil etmək üçün bilavasitə auditor təşkilatının rəhbərliyi və auditor məsuliyyət daşımalıdır. Xidmətin keyfiyyətinin daim təhlil olunması auditor təşkilatının bu sahədə atacağı ən mühüm addımlardan biri sayıla bilər. Prosesin ətraflı araşdırması göstərir ki, təsərrüfat subyektlərində aparılan audit prosesləri, təhlilləri və yoxlamaları auditin «məxfilik» prinsipinə ciddi riayət edilməsini ön plana çəkir. Audit prosesində auditora təqdim edilən çoxsaylı maliyyə-iqtisadi və digər yönümlü informasiyalar auditor və onun fəaliyyət göstərdiyi təşkilatın əsas araşdırma və tədqiqat obyekti olur. Məhz bu informasiyaların mötəbərliyi subyekt haqqında düzgün və obyektiv rəy formalaşdırmağa imkan verir. Auditin aparılması texnikası göstərir ki, informasiyaların tədqiqi, təhlili auditorun tam əmin olduğu yeni informasiyaların, sübutların ortaya çıxarmasına əsas vermiş olur. Təbii ki, ilkin və son informasiyalar auditorun işçi və yekun sənədlərində öz əksini tapır. Belə bir şəraitdə keyfiyyətli və keyfiyyətsiz auditə qiymət vermək, ən əvvəl, iki tərəfin: auditorun (auditor təşkilatının) və təsərrüfat subyektinin öhdəsinə düşür. Təcrübə göstərir ki, çox vaxt yüksək səviyyəli olmayan və ya keyfiyyətsiz aparılan auditlərin nəticələrinin müzakirəsi ilkin vaxtlarda, bəzən isə sonradan da araşdırma obyekti olmur. Belə proseslərə qiymət verilməsi Auditorlar Palatası tərəfindən mövcud qanunvericilik üzrə həyata keçirilsə də, real auditin aparılmasına tam və dolğun qiymət verilməsi auditor təşkilatı tərəfindən daha yüksək səviyyədə tənzimlənə bilər.

Auditin keyfiyyətinə nəzarəti sərbəst auditorlar özləri həyata keçirməklə, bir növ apardıqları auditor yoxlamlarının qiymətləndiricisi rolunu oynamalıdırlar. Bu proses auditin keyfiyyəti ilə bağlı artıq auditorların özlərinin hazırladıqları plan-tədbirlər və onların icra mexanizmi şəklində reallaşdırılsa, daha məqsədəuyğun olar. Hər bir halda keyfiyyət amilinin yüksək tələb meyarları üzrə qiymətləndirilməsi audit subyektinin daxili nəzarət funksiyasının təşkilini aktuallaşdırır. Audit üzrə daxili nəzarət mexanizminin formalaşmasında bəzi əsas istiqamətlərə xüsusi diqqət yetirilməsi vacibdir. İlkin olaraq, aparılan auditlərin rəsmiləşdirilməsi, sənədləşdirilməsi, yekun rəyə gəlinməsi üzrə konkret istiqamətlərin müəyyənləşdirilməsi və yekun sənədlərin formalaşdırılması prosedurları müvafiq qanunvericilik, normativ hüquqi aktlar üzrə tənzimlənməlidir. Bu prosesdə auditorun peşəkarlığı, səriştəliliyi və fəaliyyətə yaradıcı yanaşması mühüm amil kimi qiymələndirilə bilər. Digər tərəfdən, auditin aparılmasında və qiymətləndirilməsində auditor (auditor təşkilatı) milli və beynəlxalq audit standartlarına riayət edilməsini, audit prosesinin və auditor yoxlamalarının təşkilinin məqsədəuyğun planlaşdırılmasını, funksional keyfiyyət amilinə xüsusi diqqət yetirilməsini daim diqqət mərkəzində saxlamalı, bütün fəaliyyəti ərzində bu amillərin reallaşmasına nail olunmasını qarşıya məqsəd kimi qoymalıdır.

**Audit xidmətindən istifadə istiqamətləri**

Bazar iqtisadi inkişaf prosesləri təsərrüfat subyektlərini ciddi rəqabət şəraitində fəaliyyət göstərməyə məcbur edir. Bu, bazar iqtisadiyyatının mahiyyətindən irəli gəldiyi üçün təsərrüfat subyekti rəqabətə hazır olmalı və öz inkişaf istiqamətlərinə iki aspektdən qiymət verməlidir: daxili və xarici. Bu istiqamətlər baxımından təsərrüfat subyektinin inkişafına onun idarəetmə və daxili nəzarət sisteminin, istehsal və fəaliyyət prosesinin səmərəli və çevik təşkili çox böyük təsir göstərir. Bu proseslərin formalaşmasında və inkişafında audit əhəmiyyətli rol oynayır. Dünya təcrübəsi auditor



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

xidmətini yalnız səmərəli maliyyə-nəzarət forması kimi deyil, eyni zamanda idarəetmə, istehsal və fəaliyyət proseslərinin təşkilinin, istiqamətləndirilməsinin ən zəruri amillərindən biri kimi qiymətləndirir.

Auditor xidmətləri təsərrüfat subyektləri üçün təkcə iqtisadi-maliyyə proseslərinin qiymətləndiricisi kimi deyil, həm də hüquqi-sosial problemlərin qiymətləndiricisi, tədqiqatçısı kimi geniş əhəmiyyətə malikdir. Auditin aparılma metodikasına, audit standartlarına nəzər salsaq, bunun aydın təsdiqini görərik. Belə ki, auditin müraciət etdiyi sahələrdə subyektin normativ hüquqi bazasının tədqiqi, onun maliyyə-təsərrüfat fəaliyyətinin mövcud qanunvericiliyə uyğunluğunun təsdiqi istər kənar (müstəqil) audit üçün, istərsə də daxili audit üçün ən zəruri məsəllərdən biri kimi qarşıya qoyulur. Həmçinin auditor subyektdə mülki və əmək qanuvericiliyi ilə maliyyə-iqtisadi fəaliyyətin uyğunluğunu, əlaqəliliyini müəyyənləşdirir. Göstərilən fəaliyyət yalnız bununla bitmir. Bazar iqtisadiyyatı şəraitində hər bir təsərrüfat subyekti  dövlət orqanları, digər təsərrüfat subyektləri ilə çoxsaylı əlaqələrə girir, bu istiqamətdə onun müxtəlif öhdəlikləri yaranır, bu öhdəliklərin icrasının düzgünlüyünə nəzarət edilməsi və qiymət verilməsi məsələsi zəruri əhəmiyyət kəsb edir. Məhz aparılan proseslərin daim diqqət mərkəzində olması, yaranan anlaşılmazlıqların aradan qaldırılması auditor xidmətlərindən vaxtında və məqsədyönlü istifadə nəticəsində daha tez öz həllini tapır.

Azərbaycanda qısa bir müddət ərzində inkişaf mərhələsinə qədəm qoyan audit artıq təsərrüfat subyektlərinə iqtisadi-hüquqi yönümlü məsələlərin həllində də xidmət göstərməyə başlamışdır. Belə ki, 1996-cı illə müqayisədə 2017-ci ildə ölkədə göstrilən məsləhət yönümlü auditor xidmətlərinin həcmi 6 dəfədən artıq artmışdır. Auditin bu yönümlü xidmətlərinin həcminin artması təsərrüfat subyektlərinin maliyyə-iqtisadi əsaslarının möhkəmlənməsinə, onların maliyyə intizamına ciddi riayət etməsinə köməklik göstərməklə, subyektlərin öz vəsaitlərindən məqsədyönlü istifadəsində, onların idarəetmə, nəzarət və istehsal proseslərinin səmərəliliyinin möhkəmləndirilməsində də mühüm rol oynayır.



Auditin sosial sahədə göstərdiyi xidmətlər istər təsərrüfat subyektləri, istərsə də cəmiyyət üçün aktuallıq kəsb edir. Təsərrüfat subyektində işçi, kadr axını, onların əməyindən istifadənin məqsədyönlüyü, peşə-ixtisas səviyyələrinin artırılması audit prosesində təhlil obyekti kimi çıxış edir, auditor bu sahədə də öz məqsədyönlü təkliflərini hazırlayır. Xüsusilə, bazar iqtisadiyyatı şəraitində müəssisədaxili sosial proseslərin tədqiqində yaxından iştirak edən auditorlar ciddi rəqabət mühitində fəaliyyət göstərmək üçün əməkdaşlardan daha məqsədəuyğun şəkildə istifadənin istiqamətlərini, onların stimullaşdırılması zərurətini göstərir. Belə ki, işçi heyətinin ştat və ixtisasartırma ilə bağlı xərclər smetası hazırlanarkən daxili auditorun verdiyi təkliflər müəssisə rəhbərliyi üçün xüsusi əhəmiyyətə malikdir.

Təsərrüfat subyektinin bağladığı müqavilələr, onların icrası subyektin maliyyə-təsərrüfat fəaliyyəti, maliyyə vəziyyəti üçün ən mühüm məsələlərdəndir. Müqavilələrin bağlanması prosesində auditorun iştirakı onun iqtisadi və hüquqi əsaslılığı, gələcək icrası üçün mühüm amillərdəndir. Müqavilələrin bağlanması, onun ekspertizası və əsaslılığının qiymətləndirilməsində auditorun mövqeyi olduqca zəruridir. Dünya təcrübəsində bütün bu proseslərdə digər məsul şəxslərlə birgə auditorun iştirakı vacib sayılır. Məhz bu amilin nəticəsidir ki, auditor kadrları hazırlanarkən maliyyə, mühasibat, iqtisadçı ixtisasları ilə yanaşı, hüquqşünas ixtisasına da xüsusi üstünlük verilir. Azərbaycanda sahibkarlığın inkişafı ölkədə həyata keçirilən iqtisadi islahatlar prosesinin mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. İqtisadiyyatın əsas dayaq nöqtələrindən olan müəssisələrin,

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

təsərrüfat subyektlərinin inkişafı məhz onların idarəetmə sisteminin, fəaliyyətinin səmərəli və məqsədyönlü təşkili ilə bağlıdır. Müasir təsərrüfat subyektinə bu sahədə yardımçı olub, onun fəaliyyətinin inkişafına təsir edən xidmət növündən biri kimi auditor xidməti artıq öz aktuallığını sübut etməkdəir.

**Nəticə**

Azərbaycanda bazar münasibətlərinə keçidin əsasını sahibkarlıq fəaliyyətinə daha geniş meydan verilməsi təşkil edir. Lakin inkişaf edən və eləcə də artıq fəaliyyət göstərən hər bir müəssisənin, xarici investorların və iş birliklərinin fəaliyyətinin müsbət və mənfi nəticələrinin sahibkarlığın inkişafına mane olmadan təhlil olunması və onlara nəzarət edilməsi zəruridir. Audit nəzarətində əsasən hüquqi, təşkilati və iqtisadi nəzarət istiqamətləri nəzərə alınmalıdır.

## Ədəbiyyat

1. “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanun. Bakı, 1994.
2. “Azərbaycan Respublikası Auditor Palatası haqqında Əsasnamə”. 1995.
3. Azərbaycanın Milli audit standartları, Bakı, “Nağıl evi”. 2004”
4. Audit.Nağıl Evi.Bakı, 2011.
5. Audit. Qanunvericilik və normativ sənədlər. Bakı, “Nağıl evi”, 2012.
6.Praktiki audit, dərslik. Kazımov R.N, Namazova C.B. ADİU-nun nəşriyyatı, 2011.

***Ефсане Бабир кызы Кулиева***

***Основные моменты организации и развития аудита в Азербайджане***



***Резюме***

*В статье исследуются процессы развития аудита в стране. В частности, уделяется внимание правовым, методологическим основам аудита и оцениваются вопросы его качества. Кроме того, уделяется внимание направлениям развития аудита в субъектах, в связи с чем выдвигаются мнения.*

***Ключевые слова:*** *аудит, регулирование, качество услуг, правовые и методологические документы*

***Afsana Babir Kuliyeva***

***Key aspects of audit organization and development in Azerbaijan***

***Summary***

*The article examines audit development processes in the country. In particular, attention is paid to the legal, methodological basis of the audit and its quality issues are evaluated. Also, with attention to the development directions of the audit, opinions on this are put forward.*

***Keywords:*** *audit, regulation, quality of service, legal and methodological documents*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub:19.06.2019.***
***Çapa qəbul olunub:24.06.2019.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*